**Ticarət obyektində saxta alkoqollu içkilərin aşkarlanmasına dair məlumat**

**(15 aprel 2026)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Bakı şəhəri, Nizami rayonu, R.Rüstəmov küçəsi, ev 16 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Zeynalov Zakir Eyvaz oğluna məxsus ticarət obyektində yoxlama keçirib.

Baxış zamanı texniki normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib.

Ticarət obyektində aşkar saxtalaşdırılma əlamətləri olan və istehsal tarixi qeyd edilməyən “Organic Line”, “Organic Life”, “Organic” əmtəə nişanlı alkoqollu içkilər aşkarlanıb

Obyekt rəhbərliyi barəsində inzibati protokol tərtib olunub. Məhsulların satışı qadağan edilib və nümunələr götürüləröək laborator müayinələrə cəlb olunub.